**Barəsində əks-tədbirlər görülməli Yüksək Riskli yurisdiksiyalar - fevral 2026**

Yüksək riskli yurisdiksiyalar (ölkələr) əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi və kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsi (ƏL/TM/KQSYM) sahəsində ciddi strateji çatışmazlıqlara malikdir. FATF bütün üzvlərini və digər bütün yurisdiksiyaları yüksək riskli yurisdiksiyalara münasibətdə gücləndirilmiş müştəri uyğunluğu tədbirləri (müştərilərin eyniləşdirilməsi və verifikasiyası) tətbiq etməyə çağırır. Eyni zamanda, FATF ən ağır hallarda beynəlxalq maliyyə sistemini qorumaq məqsədilə ölkələri əks-tədbirlər görməyə təşviq edir. Bu zonaların adının yer aldığı siyahı “qara siyahı” adlanır.

2020-ci ilin fevral ayından etibarən İran 2025-ci ilin yanvar, avqust və dekabr aylarında fəaliyyət planının statusunda heç bir nəzərəçarpan dəyişiklik olmadığını bildirmişdir.

Kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsi risklərinin artmasını nəzərə alaraq, FATF bu yüksək riskli yurisdiksiyalara qarşı əks-tədbirlərin tətbiq edilməsinə dair çağırışını bir daha təkrarlayır.

**FATF-ın üzvlərinə və digər yurisdiksiyalara əks-tədbirlərin tətbiqi ilə bağlı çağırış etdiyi yurisdiksiyalar**

FATF son on il ərzində verdiyi bəyanatlara əsaslanaraq, KXDR-in cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizə (ƏL/TMM) rejimində mövcud olan ciddi çatışmazlıqları aradan qaldırmaq istiqamətində davamlı uğursuzluğundan və KXDR-in kütləvi qırğın silahlarının yayılması və onun maliyyələşdirilməsi ilə bağlı qeyri-qanuni fəaliyyətlərinin yaratdığı ciddi təhdidlərdən narahatlığını bildirir.

**Koreya Xalq Demokratik Respublikası (KXDR)**

FATF son on il ərzində verdiyi bəyanatlara əsaslanaraq, Koreya Xalq Demokratik Respublikasının (KXDR) cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi (ƏL/TM) ilə mübarizə rejimində mövcud olan ciddi strateji çatışmazlıqları aradan qaldırmaq istiqamətində davamlı uğursuzluğundan narahatlığını ifadə edir. FATF həmçinin KXDR-in kütləvi qırğın silahlarının (KQS) yayılması və yayılmasının maliyyələşdirilməsi ilə bağlı qeyri-qanuni fəaliyyətlərinin yaratdığı ciddi təhdidlərə diqqət çəkir.

FATF 2011-ci ildən etibarən bütün ölkələri  BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq qətiyyətlə hədəfli maliyyə sanksiyalarını tətbiq etməyə və KXDR-dən qaynaqlanan ƏL/TM və KQS yayılmasının rmaliyyələşdirilməsi isklərindən maliyyə sistemlərini qorumaq məqsədilə aşağıdakı əks-tədbirləri həyata keçirməyə çağırır:

- KXDR bankları ilə müxbir hesab münasibətlərinin dayandırılması;
- Ölkə ərazisində KXDR banklarının filial və törəmə qurumlarının bağlanması;
- KXDR ilə əlaqəli fiziki və hüquqi şəxslərlə biznes münasibətlərinin və maliyyə əməliyyatlarının məhdudlaşdırılması.

Bu çağırışlara baxmayaraq, FATF-in 2024-cü ilin fevral bəyanatında qeyd edildiyi kimi, KXDR-in beynəlxalq maliyyə sistemi ilə əlaqələrinin artması kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsi (KQSYM) risklərini yüksəldir. Bu isə KXDR-ə qarşı tətbiq olunan əks-tədbirlərin daha ciddi şəkildə icrasını və nəzarətin gücləndirilməsini tələb edir.

BMT Təhlükəsizlik Şurasının 2270 saylı qətnaməsində göstərildiyi kimi, KXDR sanksiyalardan yayınmaq məqsədilə tez-tez ön (front) şirkətlərdən, qabıq (shell) şirkətlərdən, birgə müəssisələrdən və mürəkkəb, qeyri-şəffaf mülkiyyət strukturlarından istifadə edir. Bu baxımdan, FATF üzv dövlətləri və bütün ölkələri KXDR-ə münasibətdə gücləndirilmiş müştəri uyğunluq tədbirləri tətbiq etməyə, eləcə də KXDR-in öz adından və ya onun xeyrinə həyata keçirilən əməliyyatları asanlaşdırmaq imkanlarına qarşı xüsusi həssaslıq göstərməyə çağırır.

FATF həmçinin ölkələri artmış maliyyə bağlantıları fonunda KQSYM risklərini adekvat şəkildə qiymətləndirməyə və nəzərə almağa çağırır. Xüsusilə nəzərə alınmalıdır ki, növbəti qiymətləndirmə mərhələsində ölkələr FATF-in Tövsiyə 1-i və Birbaşa Nəticə 11 çərçivəsində yayılmanın maliyyələşdirilməsi risklərini lazımi səviyyədə qiymətləndirməlidirlər.

KXDR ilə bağlı KQSYM risklərinin qiymətləndirilməsi üçün etibarlı və inandırıcı məlumatların əldə olunması United Nations Security Council 1718 Committee Ekspertlər Panelinin mandatının dayandırılması ilə əlaqədar çətinləşmişdir.

Bu baxımdan, FATF KXDR ilə bağlı hədəfli maliyyə sanksiyalarına riayət olunmasını və əks-tədbirlərin effektiv tətbiqini monitorinq etməyə davam edəcəkdir.

**İran**

FATF İranın cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) rejimində mövcud çatışmazlıqları aradan qaldırmaq məqsədilə FATF ilə yenidən əməkdaşlığa başlamasını təsdiq edir. 2016-cı ilin iyun ayında İran həmin çatışmazlıqların aradan qaldırılması üçün 2018-ci ilin yanvar ayında müddəti başa çatan fəaliyyət planı çərçivəsində yüksək səviyyəli siyasi öhdəlik təqdim etmişdir.

2019-cu ilin oktyabr ayında İranın fəaliyyət planı üzrə irəliləyiş nümayiş etdirməməsini nəzərə alaraq, FATF öz üzvlərini və bütün digər yurisdiksiyaları aşağıdakı tədbirləri tətbiq etməyə çağırmışdır:

- İranda yerləşən maliyyə institutlarının filial və törəmə qurumlarına münasibətdə nəzarət yoxlamalarının artırılması;
- Müvafiq gücləndirilmiş hesabatlılıq mexanizmlərinin və ya maliyyə əməliyyatlarının sistemli hesabatlılığının tətbiqi;
- İranla əlaqəli maliyyə qruplarının filial və törəmə qurumları üzrə gücləndirilmiş xarici audit tələblərinin müəyyən edilməsi.

2020-ci ilin fevral ayından etibarən İranın fəaliyyət planını tam şəkildə icra etməməsi ilə əlaqədar olaraq, FATF öz üzvlərini və bütün yurisdiksiyaları Tövsiyə 19-a uyğun olaraq effektiv əks-tədbirlər tətbiq etməyə çağırmışdır.

2026-cı ilin yanvar ayında İran FATF-ə Birləşmiş Millətlər Təşkilatının Transmilli Mütəşəkkil Cinayətkarlığa qarşı Konvensiyası (Palermo Konvensiyası) və Terrorçuluğun Maliyyələşdirilməsinin Qarşısının Alınmasına dair Beynəlxalq Konvensiya (Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Konvensiya) sənədlərinin ratifikasiyası ilə bağlı yenilənmiş məlumat təqdim etmişdir. FATF İranın təqdim etdiyi məlumatı və əməkdaşlığını nəzərə alsa da, hazırkı mərhələdə İranın hər iki Konvensiyaya etdiyi qeyd-şərtlərin həddindən artıq geniş olduğunu və ölkədaxili icra mexanizmlərinin FATF standartlarına uyğun olmadığını qiymətləndirir. FATF eyni zamanda qeyd edir ki, İran 2016-cı ildən etibarən fəaliyyət planının böyük hissəsini icra etməmişdir.

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının İranın nüvə silahlarının yayılmaması ilə bağlı öhdəliklərinə əməl etməməsinə dair qətnamələrini nəzərə alaraq, FATF bütün yurisdiksiyalara FATF standartlarına uyğun olaraq İrandan qaynaqlanan kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsi risklərini aradan qaldırmaq öhdəliyini xatırladır. Bundan əlavə, İrandan qaynaqlanan terrorçuluğun maliyyələşdirilməsi və yayılmanın maliyyələşdirilməsi təhdidlərinin davam etməsi və fəaliyyət planının tamamlanmaması səbəbindən FATF öz üzvlərini və bütün yurisdiksiyaları İrana münasibətdə aşağıdakı effektiv əks-tədbirləri tətbiq etməyə çağırır:

- Müvafiq ölkədən olan maliyyə institutlarının və virtual aktiv xidməti göstərən şəxslərin törəmə, filial və ya nümayəndəlik ofislərinin yaradılmasından imtina edilməsi və ya həmin maliyyə institutunun və ya virtual aktiv xidməti göstərən şəxsin adekvat ƏL/TMM sistemlərinə malik olmayan ölkədən olmasının nəzərə alınması;
- Maliyyə institutlarının və virtual aktiv xidməti göstərən şəxslərin müvafiq ölkədə filial və ya nümayəndəlik açmasının qadağan edilməsi və ya həmin filial və ya nümayəndəliyin adekvat ƏL/TMM sistemləri olmayan ölkədə yerləşəcəyinin nəzərə alınması;
- Risk əsaslı yanaşma tətbiq etməklə, müəyyən edilmiş ölkə və ya həmin ölkədə yerləşən şəxslərlə biznes münasibətlərinin və maliyyə əməliyyatlarının, o cümlədən virtual aktiv əməliyyatlarının məhdudlaşdırılması;
- Maliyyə institutlarına və virtual aktiv xidməti göstərən şəxslərə yeni müxbir münasibətlərin qurulmasının qadağan edilməsi və mövcud müxbir münasibətlər üzrə risk əsaslı təhlilin aparılmasının tələb edilməsi.

Əks-tədbirlərin tətbiqi zamanı ölkələr beynəlxalq öhdəliklərə uyğun olaraq, İrandan qaynaqlanan terrorçuluğun maliyyələşdirilməsi və yayılmanın maliyyələşdirilməsi risklərini nəzərə almaqla humanitar yardım, ərzaq və səhiyyə təchizatı, diplomatik fəaliyyət xərcləri və şəxsi pul köçürmələri ilə bağlı vəsait axınlarının risk əsaslı qaydada düzgün idarə olunmasını təmin etməlidirlər.

İran fəaliyyət planını tam icra edənədək FATF-in “Barəsində əks-tədbirlər görülməli Yüksək Riskli yurisdiksiyalar” siyahısında qalacaqdır. FATF-in əvvəlki bəyanatlarında qeyd edildiyi kimi, əgər İran Palermo və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Konvensiyaları FATF standartlarına uyğun şəkildə ratifikasiya və icra edərsə, FATF növbəti addımlar barədə, o cümlədən əks-tədbirlərin dayandırılması məsələsinə dair qərar qəbul edəcəkdir. İran fəaliyyət planı üzrə əlavə irəliləyiş nümayiş etdirmədiyi halda, FATF əlavə tədbirləri nəzərdən keçirə bilər.

FATF İranı fəaliyyət planı üzrə aşağıdakı istiqamətlərdə təxirəsalınmaz irəliləyiş əldə etmək üçün FATF ilə əməkdaşlığı gücləndirməyə çağırır:

1. Terrorçuluğun maliyyələşdirilməsinin adekvat cinayət məsuliyyəti müəyyən edilməklə kriminallaşdırılması, o cümlədən “xarici işğal, müstəmləkəçilik və irqçiliyə qarşı mübarizə aparan qruplar” üçün nəzərdə tutulmuş istisnanın aradan qaldırılması;
2. Müvafiq BMT Təhlükəsizlik Şurası qətnamələrinə uyğun olaraq terrorçu aktivlərin müəyyən edilməsi və dondurulması;
3. Adekvat və icra edilə bilən müştəri uyğunluq rejiminin təmin edilməsi;
4. Lisenziyasız pul və ya dəyər köçürmə xidməti göstərən şəxslərin müəyyən edilməsi və sanksiyalaşdırılması mexanizmlərinin tətbiqinin nümayiş etdirilməsi;
5. Palermo və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Konvensiyaların FATF standartlarına uyğun ratifikasiyası və icrası, habelə qarşılıqlı hüquqi yardım göstərmək qabiliyyətinin aydınlaşdırılması;
6. Maliyyə institutları tərəfindən pul köçürmələrinin göndərən və benefisiar barədə tam məlumatı ehtiva etməsinin təmin edilməsi.

**FATF üzvlərinə və digər yurisdiksiyalara, həmin yurisdiksiyadan qaynaqlanan risklərə uyğun olaraq gücləndirilmiş müştəri uyğunluğu tədbirləri tətbiq etməyə çağırılan yurisdiksiya**

**Myanma**

FATF aşağıdakı yurisdiksiyada risklərlə nisbətdə gücləndirilmiş müştəri uyğunluğu tədbirlərinin tətbiqini tələb edir, lakin əks-tədbirlər tətbiq edilmir.

2020-ci ilin fevral ayında Myanma strateji çatışmazlıqlarını aradan qaldırmaq öhdəliyi götürmüşdür. Myanmanın fəaliyyət planı 2021-ci ilin sentyabr ayında başa çatmışdır.

2022-ci ilin oktyabr ayında fəaliyyət planının müddətinin bitməsindən bir il keçməsinə baxmayaraq, əksər fəaliyyət maddələrinin hələ də icra edilməməsi səbəbindən FATF qərara almışdır ki, prosedurlarına uyğun olaraq əlavə tədbirlər tətbiq olunmalıdır və FATF öz üzvlərini və digər yurisdiksiyaları Myanma ilə əlaqədar yaranan risklərə uyğun gücləndirilmiş müştəri uyğunluğu tədbirlərini tətbiq etməyə çağırır.

Gücləndirilmiş müştəri uyğunluğu tədbirləri çərçivəsində maliyyə institutları biznes münasibətlərini daha yüksək səviyyədə və daha diqqətlə izləməlidir ki, həmin əməliyyatların və ya fəaliyyətlərin qeyri-adi və ya şübhəli olub olmadığı müəyyən edilsin. Əgər 2026-cı ilin iyun ayına qədər irəliləyiş əldə edilməzsə, FATF əks-tədbirləri nəzərdən keçirəcəkdir.

Myanma strateji çatışmazlıqları aradan qaldırmaq üçün FATF fəaliyyət planını təcili şəkildə həyata keçirməlidir, o cümlədən:

1. Hüquq-mühafizə orqanları istintaqında maliyyə kəşfiyyatından daha geniş istifadəni göstərmək və maliyyə kəşfiyyat orqanı tərəfindən əməliyyat təhlillərini və məlumat yayımını artırmaq;

2. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması üzrə istintaq və təqibin risklərə uyğun aparılmasını təmin etmək;
3. Transmilli cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması halları üzrə beynəlxalq əməkdaşlıqla istintaq aparıldığını nümayiş etdirmək;
4. Cinayət gəlirləri, cinayət vasitələri və ya bərabər dəyərdə olan əmlakın dondurulması, müsadirə edilməsi və əlindən alınmasının artırıldığını göstərmək.

Gücləndirilmiş müştəri uyğunluğu tədbirləri tətbiq edilərkən, ölkələr humanitar yardım, qanuni qeyri-kommersiya təşkilatları (QKT) fəaliyyəti və pul köçürmələrinin axınını pozmamalı və ya təşviq etməməlidirlər. Xüsusilə Myanmadakı zəlzələ yardım fəaliyyətləri ilə bağlı FATF tədbirlərin tətbiqinin QKT-lərə mənfi təsir göstərməməsinin, həmçinin vətəndaş cəmiyyətinə və humanitar yardımın çatdırılmasına əlavə maneə yaratmamasının vacibliyini qeyd edir. FATF həmçinin Myanmanın cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi fəaliyyətlərinin qanuni maliyyə axınlarına qarşı lazımsız nəzarət tətbiq edib-etmədiyini izləməyə davam edəcək.

Myanma fəaliyyət planını tam icra edənədək FATF-in "Fəaliyyətə Çağırışına Məruz Qalan Yurisdiksiyalar" siyahısında qalacaqdır.